ədalət.- 2021.- 18 may.- S.3.



Rəşad Məcid

# Qaragöl, yoxsa Sevlic?

***AzNews.az portalının təqdim etdiyi Qaragöllə bağlı Rəşad Məcidin unudulmaz, aktual və konkret faktlarla zəngin məqaləsini "Ədalət" qəzeti oxucularına təqdim edir.***

***

"Min cür nemətlərlə zəngin olan cənnət Azərbaycan torpağı!" Uzun illər dəbdəbəli kəlmələr torpağımız haqqında yazılan cild-cild əsərlərdən, romanlardan, poemalardan, şeirlərdən düşməyib. Uzun illər bu Vətəni qarşımıza qoyub eninə-uzununa tərifləmişik. Amma bu gözəlliyə, bu nemətlərə qəsd ediləndə, cənnət torpağımız tikə-tikə, parça-parça kəsilib "qonşulara" veriləndə səsimiz çıxmayıb, çıxıbsa da, tezcə ağzımıza daş basılıb.

Cənnət Azərbaycan torpağında hüsnünə şeirlər qoşduğumuz göllər var - Göygöl, Maralgöl, Ağgöl və s. Bu göllərdən biri də Azərbaycan SSR-in Laçın rayonu ilə Ermənistan SSR-nin Gorus rayonu arasındakı sərhəddə yerləşən Qaragöldür.

İndiki sərhədlərimizdən uzaqda yerləşən qədim Göyçə Sevana döndüyü kimi, Qaragöl də yavaş-yavaş özünə təzə ad "qazanmaqda" - "Sevlic"ə dönməkdədir. Dönməkdədir yox, Azərbaycan xalqının "fərasətli" oğullarının köməkliyi sayəsində artıq çevrilibdir.

Yaman mürgüləmişik. Qulağımızın dibində top atılıb, oyanmamışıq. Hələ deyəsən, indi-indi mürgüdən qalxırıq, oyanırıq, top səsini, mərmi səsini eşidirik! Daha doğrusu, torpağımızın daha bir cənnət guşəsinin - ürəyimizin başı Dağlıq Qarabağın Artsağa "çevriləcəyini" eşidib ayılırıq və mətbuatımızda 1969-cu ildə Azərbaycan SSR-dən kəsilib Ermənistana verilən torpaqların, meşələrin, kəndlərin, o cümlədən, Qaragölün taleyi barədə söz deyirik, hay salırıq.

... Qaragöl haqqında bu yazımla əlaqədar Laçın rayonunda olarkən qəribəydi ki, mənə Qaragölün dərdiylə bilavasitə haçansa məşğul olmuş hansısa bir təşkilatın sənədləri ilə deyil, Qarıqışlaq kənd orta məktəbinin müəllimi Çingiz Mehrəliyevlə görüşməyi tövsiyə etdilər.

Laçın Rayon Partiya Komitəsinin binasında təsadüfən tanış olduğum Çingiz müəllim, sən demə, elə Qaragöllə bağlı yenə birinci katiblə görüşmək arzusundaymış. Niyyətimi bildirən kimi Çingiz müəllim qoltuğundakı qovluqları göstərdi, sanki sinəsindən alov püskürürdü, yanıqlı-yanıqlı danışırdı. Yox, sızıldayırdı. Deyəsən, yaxşı tapışmışdıq...

***Bu adam - istedadlı müəllim, kənd ağsaqqalı saçlarını Qaragölün taleyi uğrunda ağardıbdı. İyirmi ildən artıqdır ki, Laçın rayonunun və respublikanın əlaqədar təşkilatlarının qapısına ayaq döyür, həyəcan təbili vurur, di gəl ki, nə səsinə səs verən var, nə sözünü eşidən. Qaragöl yaylağının günü-güzəranı da qarala-qarala gedir. İyirmi il ərzində Çingiz müəllimin təşəbbüsü, kənd camaatının köməkliyi ilə respublikanın, ölkənin bu məsələ ilə az da olsa əlaqəsi olan təşkilatlarına 500-ə yaxın ərizə, məktub, onlarca teleqram göndərilib. Təsəvvür edirsinizmi, 500-ə yaxın!.. Çingiz müəllimin evində üst-üstə qalaqlanmış çoxlu qovluqlarda Qaragöllə bağlı qiymətli sənədlər, müxtəlif illərin xəritələri bu adamın narahat ömründən xəbər verir.***

Çingiz müəllimin söhbətini dinlədikdə onun qoynunda yaşadığı bu uca dağlara bənzəyən qəddi-qaməti qarşısında, ağrıyla danışdığı həqiqətlər qarşısında əyilirəm, Qaragölün qara taleyində özümü və ümumən hamımızı günahkar sayıram. Və Çingiz müəllimin dəst-dəst yığılmış qovluqlarındakı sənədləri, topladığı xəritələri, bir də ömrü Qaragöl yaylağında keçən bu ağsaqqalın yaddaşındakı söz-söhbətləri bir bu yazı üçün ən etibarlı mənbə hesab edirəm.

## ÖNCƏ BİR AZ YAXIN KEÇMİŞDƏN...

***Böyük İşıqlı dağının ətəyində yerləşən Qaragöl və Qaragöl yay otlağı Gəloxçu tayfası adlanan doqquz para (Qarıqışlaq, Hacılar, Quşçu, Soyuqbulaq, Qılışlı, Mişni və s.) kəndin olub.***

***Yazağzı dədə-babalarımız bu yaylaqlara qalxar, bu otlaqlarda mal-qoyun saxlardılar. Qaragölün dupduru, tərtəmiz suyundan çay qoymaq, xəmir yoğurmaq üçün istifadə olunardı. Məscid adlanan yerdə camaat dini mərasimlər keçirər, yaylaqda ölənləri buradakı Qaraməmmədli, Qanlıca qəbiristanlıqlarında dəfn edərdilər.***

Xalq Qaragölə həm də müqəddəs ibadətgah - pir kimi baxardı. Camaat payızda yaylaqdan köçəndə gölün sahilindəki böyük daşın ("Çıraq daşı" nəzərdə tutulur- red.) üzərində piltə yandırardılar. Qədim bir inamın işartısı gələn bu adət hələ yaxın illərə kimi qorunub saxlanırdı.

Bu yerlərin sakinləri ətraf dağların (Keçəl dağ, Böyük İşıqlı, Sarı dağ, Göy dağ, Dəmirdaş, Boz dağ) və otlaqların (Ayıdərəsi, Əyriqar, Qanlıca, Dəlijəli, Yolaşan) adlarını lap qədimdən öz dillərində adlandırmış, nəsildən-nəslə ötürmüşlər.



Sovet hakimiyyəti qurulduqdan sonra 1927-1929-cu illərdə Azərbaycan SSR və Ermənistan SSR arasında sərhəd xətti müəyyən olunmuş və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq edilmişdir. Həmin sərhəd xəttinə əsasən, Qaragöl yay otlağı Azərbaycanın tərkibində qalmışdır. O illərdə nəşr olunan bütün xəritələrdə gölün və ərazinin Azərbaycan SSR-ə məxsusluğu açıq-aşkar görünür.

***1928-ci ildə kolxoz quruluşu başlanandan sonra Qaragöl yaylağı Laçın rayonu üzrə 3 N-li yay otlağı kimi qeyd edilmiş və Qarıqışlaq kəndindəki Telman adına kolxozun istifadəsinə verilmişdir.***

***Azərbaycan SSR Nazirlər Sovetinin 3 may 1951-ci il 557 N- li qərarında da Laçın rayonunun inzibati ərazisində yerləşən Qaragöl yay otlaq sahəsinin Laçın rayonu təsərrüfatlarının istifadəsinə verildiyi bir daha göstərilir.***

1960-cı illərə kimi Qaragöl yay otlağından Laçın rayonunun təsərrüfatları, Laçın camaatı əvvəlki kimi istifadə edib. 1960-cı illərdən isə yaylağa Ermənistan SSR Gorus rayonunun təsərrüfatlarının da ayağı açılmağa başlayıb. 1964-cü ildə həmin rayon Qaragölün sahilində böyük su-nasos stansiyası qurub və gölün suyunu insafsızcasına çəkib ətrafdakı erməni fermalarına, otlaqlarına vurmağa başlayıb. Bu nasos stansiyasının kimin razılığı ilə nəyə əsasən qurulduğu isə müəmma olaraq qalıb. Nasos stansiyası göldə suyun səviyyəsini aşağı salmaqla bərabər, həm də onu çirkləndirməyə başlayıb.

Bu özbaşınalığa əks tərəfdən elə bir ciddi müqavimət görməyən Gorus rayonunun rəhbərləri Qaragöldə balıq yetişdirmək fikrinə düşüblər. Qaragöldə yetişdirilən qiymətli balıq Gorus şəhərinin ərzaq mağazalarında geninə-boluna satılıbdı. Laçın rayonunun, respublikanın əlaqədar təşkilatlarının mürgülədiyini görən Çingiz müəllim həmin dövrdən Qaragölü müdafiəyə qalxır, müxtəlif təşkilatlara məktublar, şikayətlər göndərməyə başlayır.

1968-ci ildə onun "Azərbaycan kommunisti" jurnalına göndərdiyi məktub jurnalın 1969-cu il 10-cu nömrəsində çap olunur:

***"...Qaragölün taleyi təkcə Laçın rayonunun rəhbərlərini deyil, habelə respublikanın əlaqədar təşkilatlarını da narahat etməlidir. Qaragöl bütün ətraf təbiətin həyat mənbəyidir. Qaragöl yaylağında ətraf kəndlərin mal-qarası otarılır. Bu göl yaylaq əhalisi üçün misilsiz sərvətdir. Sevan gölündə suyun səviyyəsini qaldırmaq üçün milyon manatlarla vəsait xərcləyən ermənistanlı yoldaşlar nə üçünsə güclü nasoslarla Qaragölün suyunu sorur, onu tamamilə sıradan çıxarırlar. Bir müddət də belə davam etsə, Qaragöl quruyacaq, yaylaq isə öz təsərrüfat əhəmiyyətini itirəcəkdir. Nə qədər ki, gec deyil, bu barədə təsirli tədbirlər görülməlidir.***



***Məktubun işıq üzü görməsindən bir az əvvəl isə, sən demə, Qaragölün, eləcə də Qaragöl yay otlağının ən axar-baxarlı sahəsinin taleyi Azərbaycan və Ermənistan SSR Ali Soveti Rəyasət heyətlərinin 7 may 1969-cu il qərarı ilə gizlicə yüksək kabinetlərdə həll olunmuşdur.***

***Həmin bədnam qərarla ikitərəfli komissiyanın razılığı əsasında Azərbaycan əliaçıqlıq edərək Qaragöl ərazisindən xeyli torpağı kəsib Ermənistan SSR-ə vermişdir. Lakin bu "qərar" Azərbaycan xalqından xəbərsiz imzalanmış, xəyanətkar rəhbərlər xalqdan gizlin bu qərara razılıq vermişlər.***

Bu gün aşkarlıq və demokratiya şəraitində Azərbaycan xalqının 7 may 1969-cu il qərarının səbəblərini, bu qərarı kimlərin və necə hazırladıqlarını, sərhəd xətlərinin çəkilməsində kimlərin iştirak etdiyini, ümumiyyətlə, bu qərarla bağlı bütün məsələlərin işıqlandırılmasını tələb etməyə tam haqqı var. Bu qaranlıq məqamlar aydınlaşdırılmasa, xalq bu satqın "əliaçıqları" tanımayacaqdır. Bunun isə keçmişdən daha çox bizim gələcəyimizə zərəri vardır.

1969-cu ilə kimi isə erməni "alimləri" bekar dayanmamış, həmin bədnam qərara "real zəminlər" hazırlayıbmışlar. Ən öncə Zaqafqaziya MİK-nin 1927-1929-cu il arxiv sənədləri, həmin illərin xəritələri yoxa çıxmışdır. Onu da deyim ki, hətta 1928-ci ildə tərtib edilmiş Laçın rayonu yay otlaqlarının pasportlaşdırma xəritəsi də yoxa çıxmışdır.

## DƏMİRDAŞ, YOXSA KİÇİK İŞIQLI?

X.C.Zamanovun "Kiçik Qafqazın gölləri və anbarlarının su balansı" (Bakı, 1969) kitabından:

"...İşıqlı Qaragölü Həkəri çayının sağ qolu olan Ağoğlan çayının sağ qolu Xoznavarçayın mənbə hissəsi rayonunda, dəniz səviyyəsindən 2666 metr yüksəklikdə yerləşmişdir. İşıqlı Qaragölü Azərbaycan SSR-in dövlət sərhədindəki Böyük İşıqlı dağının (3552 m) şimal ətəyindədir. Qaragöl şimaldan Boz dağ və Göy dağla, şimal-qərbdən DƏMİRDAŞ və Kiçik İşıqlı dağı (3455 m) ilə, cənubdan Keçəl dağ, şərqdən isə alçaq Moren tirəsi ilə əhatə olunmuşdur".

1969-cu ildə çap olunmuş bu kitabda Qaragölü əhatə edən dağların adı aydın şəkildə göstərilir. Zaqafqaziya MİK-nin 1927-1929-cu illərə aid sənədlərində sərhəd xəttinin Böyük İşıqlı və Kiçik İşıqlı dağlarından keçdiyi qeyd edilib.

Erməni alimlərinin "ustalığı" və belə işlərdə "yüksək təcrübəsinin" nəticəsi olaraq 1942-ci ildən sonrakı xəritələrində Kiçik İşıqlı dağı Dəmirdaşın "yerinə köçür", Dəmirdaş isə "yoxa çıxır".

Çingiz müəllim 1985-ci ilin noyabr ayında hər iki respublikanın qarşılıqlı komissiyası Qaragöl ərazisində olarkən Azərbaycan SSR-in 1:25000 miqyaslı 1942-ci il xəritəsində həmin düzəlişi öz gözü ilə gördüyündən ürək ağrısı ilə danışır.

Deməli, bu "düzəlişin" məqsədi aydındır. Belə ki, 1969-cu ildə təsdiq olunacaq xəritələrdə bu faktdan istifadə olunacaq, sərhəd xətti Kiçik İşıqlı əvəzinə Dəmirdaşdan keçəcək və 5-6 km-ə qədər Laçın rayonunun ərazisinə doğru çəkiləcəkdir. Beləliklə, Laçın rayonunun Qaragöl yay otlağının sahəsi təxminən 250 hektar azalacaq, gölün böyük hissəsi Ermənistan SSR-in ərazisində qalacaqdır.

## SURƏTİN SURƏTİ

Başqa bir "real zəmin" isə müəmmalı bir protokolun surətinin surətinin tapılması (!) olacaq. SSRİ Dövlət Yer Quruluşuna Nəzarət İdarəsinin rəisi A.S.Zemtsevin Azərbaycan SSR Qarıqışlaq kənd sakini Ç.Mehrəliyevə 6 fevral 1987-ci il tarixli cavabından:

**"Hörmətli Ç.Mehrəliyev yoldaş.**

Sizin 22 dekabr 1986-cı il və 17 yanvar 1987-ci il tarixli məktublarınıza əsasən SSRİ Dövlət Yer Quruluşu və Xəritəçilik İdarəsinin arxivindəki materiallar öyrənilmişdir. Buna əsasən bildiririk:

***1. SSRİ Dövlət Yer Quruluşu və Xəritəçilik İdarəsinin arxivində Zaqafqaziya MİK-nin sənədləri yoxdur...***

***2. Azərbaycan, Ermənistan və Gürcüstan nümayəndələrinin sərhəd xəritələrinin dəqiqləşdirilməsi ilə bağlı respublikalararası müşavirəsinin 05.03.1938-ci il tarixli protokolunun surətinin surəti (!) tapılmışdır. Protokolun 8-ci maddəsində deyilir: "Qaragöl Ermənistan SSR-ə məxsusdur"...***

***3. Dəmirdaş dağı ilə bağlı deyərdik ki, çap olunmuş müvafiq xəritələrdə həmin ərazidə belə dağ qeydə alınmayıb "..***

Göründüyü kimi, A.S.Zemtsev çox bəxtəvərcəsinə protokolun surətinin surəti tapıldığını bildirir. Yəqin ki, oxuculara həmin varlığı və yoxluğu dəqiq məlum olmayan "protokolu" kimlərin imzaladığı maraqlı olar. Buyurun, tanış olun: İsaxanyan, Qalustyan, Çerekeşveli, Metreveli, Ağalarzadə, Akopocan, Karkaşadze, Matsknviç, Kotyuk, Tatulov, Komarovski və Qriqoryan.

Sizcə, Azərbaycan SSR tərəfindən həmin protokolun doğruluğunu kim təsdiq edib? Qəribə və ağrılı da olsa, deyək: Azərbaycan MİK-nin o illərdəki işlər müdiri Qadakçyan.

***Həmin protokola əsasən 10.IV.1945-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətində respublika sərhədləri təsdiq edilmişdir. Təsdiq olunmuş xəritədə artıq Qaragöl Ermənistan SSR-in ərazisinə düşüb. Həmin xəritəni imzalayıblar: Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi Kübra xanım Fərəcova, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin məsləhətçisi M.Kələntərov və Azərbaycan SSR Baş Geodeziya və Xəritəçilik İdarəsinin əməkdaşı P.Savenko.***

Təəssüf ki, 1969-cu ildəki qərarı və xəritələri imzalayanların kim olduğunu öyrənə bilmədik. Yəqin ki, illər ötəndən sonra həmin şəxslər də məlum olacaq.

Ancaq 1969-cu ildə Qaragölü, eləcə də respublikamızın başqa rayonlarından gizlicə verilmiş torpaqları qonşularımız tam zəbt edə bilmirlər, Heydər Əliyevin Azərbaycan KP MK-nın I katibi seçilməsi buna mane olur.

***Çingiz müəllim və başqa qeyrətli oğlanlarımız isə dayanmadan öz tələblərini, həyəcan dolu məktublarını müxtəlif təşkilatlara yollamaqda davam edirlər.***

***1973-cü ilin 29-30 avqustunda həmin məktub və şikayətlərin əsasında Qaragölə qarşılıqlı komissiya gəlir və 1927-1929-cu illərin sənədlərinə əsaslanaraq Qaragölün Azərbaycan SSR-ə məxsus olduğunu göstərir. Ancaq komissiya neçə illərdən bəri Ermənistan SSR-in gölün suyunu sorub qurtaran nasosunu yığışdırmaq əvəzinə, qərara alır ki, Azərbaycan SSR də bir nasos qursun. Bu isə gölün daha şiddətlə çirklənməsinə şərait yaradır.***

Nəhayət, 1984-cü ildən sonra saxta tarixlər yer üzərinə köçürülməyə başlayır. "İzvestiya" qəzetinin 1986-cı il 29 yanvar nömrəsində Çingiz Mehrəliyevin "Dağlar gözəlinin taleyi" adlı məktubu çap olunur. Bu məktubda Qaragölün taleyi ilə bağlı məsələlərdən bəhs edilir. Hər iki respublika Nazirlər Sovetinin müavinlərinin cavabları və redaksiyanın fikri də həmin məktubla bərabər işıq üzü görür. Göstərilir ki, bu "dağlar gözəlini" gələcək nəsillərə qoruyub saxlamaq hamının borcudur.

Qəzetin işə qarışması təsirsiz qalmır. 1986-cı ilin 7 avqustunda hər iki respublikanın qarşılıqlı komissiyası Qaragöldə olur. Komissiya qərara alır ki, göldən su nasos stansiyaları götürülsün, balıq yetişdirilməsi və tutulması qadağan olunsun, respublikalararası Qaragöl Dövlət qoruğu yaradılsın. Komissiyanın üzvləri Qaragöl ərazisində azərbaycanlıların Qara Məmmədli, Qanlıca qəbiristanlıqlarının erməni ekstremistləri tərəfindən vəhşicəsinə dağıdılmasının şahidi olur. Qeyd edək ki, bu cür hadisələr başqa sərhəd rayonlarımızın ərazisində də baş verməyib. Amma heç kim bu barədə ağzını açıb bir kəlmə danışmamışdır.

Nəhayət, Azərbaycan SSR Nazirlər Soveti və Ermənistan SSR Nazirlər Soveti "Qaragöl" ("Sevlic") dövlət qoruğunun yaradılması haqqında 17 noyabr 1987-ci il 408/717 nömrəli qərar qəbul edir. Sahilin çəmənlik, axar-baxarlı hissəsi, gölün demək olar ki, 90 faizi Ermənistan SSR-in "Sevlic" qoruğuna tabe olur. Qaragölün cüzi hissəsində və daşlı-çınqıllı, ayaqdəyməz sahilində isə 1988-ci ilin yanvarın 1-dən "Qaragöl" qoruğu yaradılır.

RESPUBLİKALARARASI "QARAGÖL" DÖVLƏT QORUGU artıq iki ilə yaxındır ki, yaradılıb. Qoruğa yeddi nəfər işçi ştatı verilib. Qoruq yaradılarkən Bakı şəhərinin sakini, Azərbaycan Geodeziya İdarəsinin əməkdaşı Cəlal Nağıyev qoruğa direktor təyin olunur. Qaragölə olan "böyük məhəbbət" onu bura çəkib gətirir. Qoruqda elmi işlər üzrə direktor müavini ştatı isə hələ də boşdur. Qoruğun idarəsi göldən təxminən 50 kilometr aralıda, Laçın şəhərində, Meşə Təsərrüfatı İdarəsinin binasında bir otaqda yerləşir.

Qoruğun üç nəfər yegeri, yəni bilavasitə Qaragöldə işləyən adamlar 10-15 km aralı kəndlərin sakinləridir və çox zaman həftələrlə Qaragölə ayaq basmırlar. Heç gölün sahilində yegerlərin qalması üçün münasib bir tikili də yoxdur.

**Qarşı tərəfdən Qaragölə geniş yol, işıq çəkildiyi, tikililər inşa edildiyi halda, qoruğun işçilərinin və Laçın rayonu əlaqədar təşkilatlarının Qaragölə belə münasibətinə ənənəvi etinasızlığın və laqeydliyin davamından başqa nə ad vermək olar? Bax, biz beləyik, qulağımızın dibində top atılır, ayılırıq və təzədən mürgüyə gedirik. Yaxşıca yığışaq, ağlaşaq, vəssalam...**

**"Elm və həyat", 1989.**